# Dövlət büdcəsindən və büdcədənkənar dövlət fondlarından ayrılan əsaslı vəsait qoyuluşlarının (investisiyaların) dövlət müəssisələrinin nizamnamə kapitalının artırılmasına yönəldilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Dövlət müəssisələrinin maliyyə vəziyyətinin sağlamlaşdırılmasını, habelə dövlət büdcəsindən və büdcədənkənar dövlət fondlarından ayrılan əsaslı vəsait qoyuluşlarının (investisiyaların) təyinatı üzrə səmərəli istifadə edilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. 2010-cu ildən başlayaraq, dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərindən dövlət müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki bazasının gücləndirilməsinə, o cümlədən müvafiq xidmətlərin göstərilməsi ilə bağlı balanslarında olan obyektlər üzrə infrastrukturun yenidən qurulmasına və inkişafına yönəldilməsi nəzərdə tutulan vəsait qanunvericiliklə müəyyən edilmiş qaydada həmin müəssisələrin nizamnamə kapitalına daxil edilsin.

2. 2007-2009-cu illər ərzində dövlət müəssisələrinə dövlət büdcəsindən və büdcədənkənar dövlət fondlarından ayrılmış əsaslı vəsait qoyuluşları (investisiyalar) həmin dövlət müəssisələrinin nizamnamə kapitalının artırılmasına yönəldilmiş hesab edilsin.

3. Aidiyyəti dövlət müəssisələrinə və Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə tapşırılsın ki:

- qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət büdcəsindən və büdcədənkənar dövlət fondlarından əsaslı vəsait qoyuluşları (investisiyalar) ayrılmış dövlət müəssisələrinin nizamnamələrində müvafiq düzəlişlər edilməsini təmin etsinlər, zəruri hallarda müvafiq təkliflər hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər;

- bu qərarın icrası barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 22 oktyabr 2010-cu il
183